# Kamal Sunal - Təbəssümün təcəssümü

1991-ci il idi. Kamal Sunal 81-ci filminə - “Varyeməz” filminə çəkilirdi. Bu filmdə o, toxuculuq fabriki müdiri Rəqib Əlibol rolunu oynayırdı. Əlibol əslində, Əliboş idi. Çox simic idi. İfrat dərəcədə qənaət edirdi. Kamal Sunal müsahibələrindən birində Rəqib Əlibol rolunun 80 filmdəki rollarından ən asanı olduğunu dedi. Bəsit kimi bilinən rolları görün nə qədər çətin imiş onun üçün... Bu filmdə o, bir adamın inanılmaz yalqızlığını oynadı. Heç kəsin ona hörmət etmədiyini gec başa düşən Dağ adam Rəqib Əlibolu oynadı. Sonda konstitusiyada mənəvi cəzanı yaradan Rəqib Əlibolu oynadı. Mənim üçün onun bu filmi baxdığım 82 filmindən ən yaxşısı idi.

47 yaşında idi. Lakin, saçını tez ağartmışdı, hiss olunurdu ki, yaşlanırdı. 8 il teatrda, 20 il kinoda Kamal Sunal dastan yazmışdı. 81 filmdə rol almışdı. O qədər professianallaşmışdı ki, 1988-ci ildə mükafat alarkən çıxışına səssizliklə başlamış və danışmasa da güldürə bilmişdi. Filmindəki hər cümləsi milyonlarla insanın dilində əzbər olmuşdu. Uğurunun önünə keçilə bilmirdi. Yaşı artdıqca uğurları, filmləri birə min artırdı. İş o yerə gəlib çatmışdı ki, 47 yaşında 81 filmdə rol almışdı. Lakin, 81-ci filmi düşərli olmamışdı onun üçün. Kamal Sunalın karyerasında yeni bir dönəmin başlanğıcı olacaqdı 81-ci film.

Kamal Sunal 81-ci filminin çox baxılmadığını gördü. Filmə tələbatın azaldığını gördü. Filmi keyfiyyətsiz sananları gördü. Bir az məyus oldu, fikirləşdi ki, 82-ci filmi çəksə, çox baxılmaz. Ona görə də daha film çəkmədi... Onun üçün böyük dövr bitmişdi. Sunala görə Ən böyük dövr başlamışdı. Daha o gözəl filmləri çəkməyəcəkdi Kamal Sunal. Hədəfi 100-cü film ikən 81-ci filmdə də qaldı.

Eşitdi ki, bu dövrdə filmdən çox seriala baxırlar. Hansı kanalı görürsən ki, orada seriala baxırlar. O vaxtın ən çox baxılan seriallarına özünün də gözü sataşmışdı. 81-ci filminin baxılmadığını görən Kamal Sunal serial karyerasına atıldı.

1992-1997-ci illərdə Kamal Sunal serial karyerasına davam etdi, lakin, kinoda əldə etdiyi nailiyyəti əldə edə bilmədi... Məhz buna görə.

19 sentyabr 1992-ci il... Türkiyənin ən baxımlı kanallarından olan Star TV kanalında Kamal Sunalın “Sayğılar Bizdə” serialının 1-ci bölümü göstəriləcəkdi. Bütün xalq bu seriala baxmaq üçün saatları çeynəyir, ən çox da Kamal Sunal. Dördgözlə “Sayğılar Bizdə”nin premyerasını gözləyirdilər. Çünki, bu serial onun ilk serialı idi. 81-ci filmdən sonra o, bu serialda çəkilmişdi. Bilirdi ki, Şaban filmlərini izləyənlər bu serialı da izləyəcəkdilər.

Saatlar ötür, keçir. Bir türk ailəsi dördgözlə “Sayğılar Bizdən”i gözləyir, Kamal Sunalın necə məharətlə oynadığını bir də görmək istəyir. Ancaq, onlar çox gözləmək istəməyib başqa kanalları da çevirdilər. Bir də görürlər ki, başqa bir kanalda Kamal Sunalın filmini, məsələn, 81-ci filmi olan “Varyeməz”i verirlər. Ailə başçısı həyəcanla:

-Bu, Kamal Sunalın yeni filmidir deyəsən. Biz baxmamışıq, - deyə “Sayğılar Bizdən” serialına yox, “Varyeməz”ə baxırlar. Beləcə, bütün xalq belə edir. “Sayğılar Bizdən”, “Varyeməz”dən də az baxılır, çünki, həmin vaxt Kamal Sunalın ən baxımlı filmlərini verirdilər. Kamal Sunal ən böyük dövrə başladım deyərkən bu serialın reytinqi alt-üst etmədiyini görür. O qədər məyus olur ki, 82-ci filmini çəkmək istəyir.

Bir müddətdən sonra, 12 dekabr 1992-ci ildə 13-cü bölümündə serial final edir. Xalqın (bəzi Sunalsevərləri çıxmaq şərti ilə) bu finaldan xəbəri olmur. Kamal Sunal bu karyeraya yaxşı başlamır. Gör necə tanınmayıbsa, mənim də xəbərim olmayıb bu seriala baxım.

Bir ay əvvəl bu seriala baxdım. Çox bəyəndim.

Onda bu serialda nədən danışırdılar? Ədliyyənin rüşvətindən, ədalətsiz qərarlardan, neçə ailənin ayrılmasından, neçə günahsızın həbs olunmasından, neçə günahlının da həbsdən qaçmasından danışır bu serial. Əslində, Kamal Sunalın əsərləri



*Kamal Sunal ‘’Varyeməz’’ filminə çəkilərkən, 1991*

arasında ən baxımlı şah əsəri bu serial olmalı idi.

Vazkeçməməyi yenə anlayan Kamal Sunal bu dəfə yenə seriala çəkilir. 1993-cü ildə “Şaban Əsgərdədir” serialı çəkilir. (Qeyd edim ki, Kamal Sunal hərbi xidmətini 1981-ci ildə Ankaranın Etimeskut hərbi hissəsində keçib). O, bu serialda əfəl və yaramaz əsgər rolunu oynayır. Özünü nazirin əmisi oğlu kimi və rəssam kimi tanıdır. Ancaq sonra həqiqətən nazirin əmisi oğlu çıxır, lakin, nazir onu yenə sevmir. Yenə də həmin əfəl Şaban olaraq qalır. 20 ilin Şabanı ilk və tək olaraq serialda Şaban oldu, lakin, yenə də bu serial o biri kanalların Kamal Sunal filmi verdiyinə görə baxılmadı və tanınmadı...

Kamal Sunal 2-ci zərbəni aldı, lakin, yenə də vazkeçmədi. O, bu dəfə yenə yaramaz olan, polislikdən atılıb dedektiv olan, lakin, yenə də əvvəlki müdirini bezdirən, ondan kömək istəyən Cənab Qəmbər oldu. 1994-cü ildə o, “Cənab Qəmbər” serialında rol aldı. Lakin, bu da vəziyyəti dəyişdirmədi. 1997-ci ildə “artıq bu sondur” dedi və heç birinci seriyası internetdə tapılıb baxılmayan “Şaban və Şirin” serialında Şaban rolunu canlandırdı.

1998-ci ildə hər sahədə özünü sınayan Kamal Sunal bir kitab da yazdı. Məndə bu kitab var. “Televiziya və Kinoda Kamal Sunal Komediyası”. İçində 82 film və 4 serial olmaqla Kamal Sunal öz karyerasından danışır.

Bu qədər baxımsızlıq və fikir çəkməsi onun səhhətində problemləri yaratdı. 1998-ci ildə ürək xəstəsi olduğunu və səhhətinə fikir verməsə ürəyinin dayanacağını eşitdi. “Varyeməz” filmində bir az yaşlı görünən Kamal artıq adaşı Mustafa Kamal kimi yaşlılığa doğru yol alırdı. Çox məyus oldu. Ata ürəyi, Həyat yoldaşı və xəstə ürəyi həyəcanlandı. Bəs Gül, Əli və Ezo bilsə nə olacaq? Çox pis olarlar yəqin. Ona görə də 1998-ci ildən ara-sıra maşını ilə Almaniyaya gedib alman həkimdən müalicə alırdı. Almaniyaya getməsini zərrə də olsun bildirmirdi. Film, ya da serial çəkməyən Kamal Sunal artıq film çəkmək istəyirdi. Kino işində addım atmaq istəyirdi. O, buna nail oldu və 1999-cu ildə “Təbliğat” (Propaganda) adlı 82-ci filmini çəkdi. Bu filmdə o, ikinci və sonuncu dəfə oğlu ilə rol alırdı. Əli Sunal üçün bu çox dəyərli idi. O, 1997-ci ildə “Şaban ilə Şirin” serialında da rol almışdı. Lakin, bu film “Şaban ilə Şirin”dən də dəyərli idi onun üçün...

Artıq bir millenium bitir. 2000-ci ilə gəlib çatırıq. Artıq əlini daşın altına qoyan Kamal Sunal 83-cü filminə də çəkilmək istəyirdi. Sonra gələn təkliflərdən birini qəbul etdi və rejissoru Əli Özgəntürk, ssenaristi isə İşil Özgəntürk və Rüstəm İbrahimbəyov olan Balalayka filminə çəkilmək qərarı aldı. Həmin filmin gedişatını 83-cü filmin rejissoru Əli Özgəntürkdən eşidək:

-1985-ci ildən təyyarəyə minmirmiş. Təyyarə fobiyası var idi. 15 il təyyarəyə yaxınlaşmamağı bacarmışdı. Lakin, 2000-ci ildə çəkəcəyimiz “Balalayka” filmi üçün Batumiyə getməyimizi eşidəndə bir az həyəcanlandı. Batumi uzaq yol idi, buna görə də təyyarə lazım idi. Onunla bir dialoqumuz oldu:




*Kamal Sunalın çəkiləcəyi Balalayka filmi. Kamal Sunalın rolunu Uğur Yücel (ortada) oynamışdır.*

-Batumiyə getməliyik, Kamal.

-İstəyirsənsə, təyyarə ilə gedək.

-Yox, sənin təyyarə fobiyan var.

-Heç nə olmaz, dişimi sıxaram. Uzun yol deyil ki...

-Maşınla gedəkmi.

-Həm yorularıq, həm də özüm sürmədiyim maşında həyəcanlanaram. Gəl, təyyarə ilə gedək. Sən məndən narahat olma.

Beləcə, təyyarə ilə getməyə razılaşdı. Təyyarədə “Varyeməz” filmində birlikdə çəkildiyi Cem Davran da var idi. Çox həyəcanlanırdı. Yay ayı idi, isti də canını sıxırdı. Özlüyündə fikirləşirdi ki, kaş təyyarəyə minməzdi.

Stüardessanın təyyarə dənizdə batarsa kimi qorxulu sözlərini eşidəndə daha çox qorxurdu. Təyyarə ayağını yerdən kəsərkən daha da həyəcanlandı, ürəyi zəiflədi və başını aşağı endirib çiynini oğlu Əliyə söykəyərək huşunu itirdi. Oğlu Əlinin “ata, nə olar ölmə, nə olar ata” haraylarını eşitmədi. Nə etdilərsə, olmadı.

Təbəssümün Təcəssümü olan gülərüzlü Kamal Sunal 3 iyul 2000-ci ildə 145 sərnişinin, Cem Davranın, Əli Özgəntürkün və ən əsası, rol bölüşdüyü və canından çox sevdiyi oğlunun gözləri önündə canını verdi. Son sözü də ölmədən əvvəl təyyarədə eşidilən guppultulardan narahat olaraq dediyi - “Təyyarə havaya qalxmadan öləcəyik” cümləsi oldu.

Kamal Sunal hələ də yaşayır və başda Ona görə ad gününü 11 noyabr etdiyi Atatürkün də ruhu olmaqla, bütün rəhmətə gedən sevdiklərinin ruhunu şad edir. Neçə-neçə 100 illiklər keçsə də, xalq Kamal Sunalın 82 filminə baxıb güləcək, 3 iyula görə isə kədərlənəcək...